# Biblioqraf vəzifəsi üzrə test tapşırıqları

1. Elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutu qeyd edin.

A) Nəşriyyat

B) Universitet

C) Kitabxana

D) Poliqrafiya

E) Dərnək

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

2. "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən kitabxana işi nə deməkdir?

A) İctimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu

B) Elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət

C) İnformasiyanın mətn, səs yazma və təsvir formasında qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi və ya qorunması məqsədini daşıyan maddi obyekt

D) Elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut

E) Oxucuların sərbəst surətdə informasiya almaq hüququnu təmin etmək, onların kitablara, dövri nəşrlərə və kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəmək məqsədilə həyata keçirilən fəaliyyət

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

3. Aşağdakılardan hansı kitabxana işi sahəsində dövlətin vəzifələrinə aid deyil?

A) Kitabxana işinə dair dövlət standartlarının müəyyən olunması

B) Qeyri-dövlət kitabxanalarının inkişafına şərait yaradılması

C) Kitabxana fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının qəbul və tətbiq edilməsi

D) Kitabxana fondlarının statistik uçotunun aparılması

E) Kitabxanalara dövlət qayğısı, onların toxunulmazlığı və maliyyələşdirilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

4. İnformasiyanın mətn, səs yazma və təsvir formasında qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi və ya qorunması məqsədini daşıyan maddi obyekt:

A) Kitab

B) Jurnal

C) Protokol

D) Sənəd

E) Kitabxana

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

5. Qüvvədə olan müvafiq qanunvericiliyə əsasən kitabxana fondları ola bilər:
1.Universal;
2. Sosial;

3. Qarşılıqlı istifadə;
4. Sahəvi;
5. Qanunçuluq;
6. Komplektləşdirmə;
7. İxtisaslaşdırılmış;
8. Depozitar mühafizə;
9. Mübadilə;
10. Çoxsahəli.

A) 1, 4, 7, 10

B) 2, 4, 7, 9

C) 1, 2, 4, 10

D) 4, 7, 8, 9

E) 2, 6, 7, 8

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

6. "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"na görə kitabxanaların vəzifələrini qeyd edin:
1. Oxucularla birlikdə köhnəlmiş və ya yararsız hala düşmüş kitabları kitabxananın fondundan çıxarmaq;
2. Oxucuların məlumat əldə etmək azadlığını təmin etmək;
3. Oxuculardan kitabxanaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada tələb etmək;
4. Oxucuların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmaq;
5. Oxuculara kitabxanalardan istifadə qaydalarına əməl etməyi və kitab fonduna qayğı ilə yanaşmağı bildirmək;
6. Oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını təmin etmək.

A) 1, 2, 4

B) 2, 4, 6

C) 3, 4, 5

D) 2, 3, 4

E) 3, 4, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

7. Kitabxana fondlarının statistik uçotunun aparılması ölkəmizdə hansı subyektin vəzifəsidir?

A) Hüquqi şəxslərin

B) Bələdiyyələrin

C) Dövlətin

D) Fiziki şəxslərin

E) Beynəlxalq təşkilatların

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

8. Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə hansı dövlət kitabxanaları daxildir?
1. Dövlət idarə, müəssisə və təşkilatlarının kitabxanaları;
2. Şəhər, rayon, qəsəbə, kənd kitabxanaları;
3. Bələdiyyə kitabxanaları;
4. Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar;
5. Özəl və digər kitabxanalar;
6. İctimai birliklərin kitabxanaları;
7. Milli kitabxana.

A) 1, 2, 3, 4, 6, 7

B) 1, 3, 4, 6, 7

C) 1, 2, 4, 7

D) 1, 4, 6

E) 1, 2, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

9. Ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətini hansı qurum həyata keçirir?

A) Dövlət kitabxanaları

B) Azərbaycan Respublikası Təhsil Nazirliyi

C) Bələdiyyə kitabxanaları

D) Azərbaycan Milli Elmlər Akademiyası

E) Milli Kitabxana

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

10. Qüvvədə olan müvafiq qanunvericiliyə əsasən elm sahəsinə görə ixtisaslaşdırılan, milli və xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya müəssisələrini qeyd edin:

A) Milli Kitabxana

B) Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar

C) Bələdiyyə kitabxanaları

D) Xarici hüquqi və fiziki şəxslər tərəfindən təsis edilmiş kitabxanalar

E) İctimai birliklərin kitabxanaları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

11. Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müvafiq sahədə fəaliyyət göstərən digər kitabxanalar üçün hansı funksiyaları yerinə yetirir?

A) İnformasiya, kitabxanalararası abonement və metodik mərkəz

B) Sosial, informasiya və abonement metodik mərkəz

C) Kitabxanalararası abonement,  təlim-tədris və elmi-metodik mərkəz

D) Sosial, kitabxanalararası abonement və metodik mərkəz

E) İnformasiya, təlim-tədris və elmi-metodik mərkəz

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

12. Kitabxanalar sənəd-informasiya ehtiyatlarından səmərəli istifadə məqsədilə elmi-texniki və digər informasiya orqanları, arxivlər, başqa idarə və müəssisələrlə yaratdıqları qarşılıqlı əlaqəni hansı sənədlər əsasında həyata keçirirlər?

A) Fəaliyyət proqramları və planları

B) Akt və protokollar

C) Fəaliyyət proqramları və müqavilələr

D) Beynəlxalq müqavilələr

E) Akt və müqavilələr

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

13. "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, kitabxana fondunun tərkibinə hansı informasiya daşıyıcıları daxildir?
1. Kurikulum;
2. Əlyazmalar;
3. Qəzet;
4. İmzalar;
5. Jurnal;
6. Kitab;
7. Tabel;
8. Audiovizual materiallar.

A) 3, 5, 6

B) 1, 2, 4, 8

C) 2, 3, 5, 6, 8

D) 1, 2, 3, 4, 5, 6

E) 2, 3, 4, 5, 6, 7, 8

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

14. Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının hansı sisteminə daxil edilərək xüsusi rejimdə mühafizə olunur?

A) Milli-mədəni sərvətlər reyestrinə

B) Xüsusi əmlak reyestrinə

C) Qırmızı kitaba

D) Milli arxiv fondu reyestrinə

E) Mərkəzi muzeyə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

15. Azərbaycan Respublikası Dövlət Kitabxana Fondu mülkiyyətindədir:

A) Hüquqi şəxslərin

B) Dövlətin

C) Milli Kitabxananın

D) Fiziki şəxslərin

E) Bələdiyyənin

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

16. Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər (qəzet və jurnal redaksiyaları istisna olmaqla) buraxdıqları çap məhsullarından neçə ədəd pulsuz nüsxəni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın kitabxanasına göndərməlidirlər?

A) 5 ədəd

B) 4 ədəd

C) 3 ədəd

D) 2 ədəd

E) 1 ədəd

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

17. Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər (qəzet və jurnal redaksiyaları istisna olmaqla) tərəfindən buraxılan çap məhsullarından profilinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın kitabxanalarına neçə pulsuz nüsxə göndərilməlidir?

A) 1 ədəd

B) 2 ədəd

C) 3 ədəd

D) 4 ədəd

E) 5 ədəd

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

18. Qüvvədə olan müvafiq qanunvericiliyə görə hansı çap məhsulları və digər materiallar müəyyən olunmuş qaydada bir kitabxanadan digərinə əvəzsiz verilə bilər?

A) Dövrün tələblərinə uyğun gəlməyən və məzmunu aktual olmayan

B) Təhsil proqramına və tədris standartlarına uyğun gəlməyən

C) Yalnız əvəzli şəkildə verilə bilən və məzmunu zəngin olmayan

D) Qüvvədə olan müvafiq qanunvericiliyin normalarına zidd olan

E) Ölkəmizin milli-mədəni sərvətlər reyestrinə daxil olmayan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

19. "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, kitabxanalar təmin edilməlidir:
1. Beynəlxalq abonement;
2. Qiraət zalı;
3. Biblioqrafiya;
4. Elmi-texniki informasiya;
5. Kitabxanalararası abonement;
6. Kompleks vasitələr;
7. Texniki abonement;
8. Yataqxana.

A) 1, 2, 3

B) 1, 2, 3, 4

C) 1, 2, 3, 4, 5

D) 1, 2, 3, 4, 5, 6

E) 1, 2, 3, 4, 5, 6, 7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

20. Azərbaycanda kitabxana işinin idarə olunması ilə bağlı aşağıdakı mülahizələrdən hansı doğru deyildir?

A) Mülkiyyət formasından asılı olmayaraq kitabxanaların elmi-metodik təminatı Milli Kitabxana və elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar tərəfindən həyata keçirilir

B) Dövlət kitabxanalarında pullu xidmət yalnız əlavə əmək sərfi tələb edən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən xüsusi xidmət növlərinə aid edilir

C) İdarə, müəssisə və təşkilatların, habelə ictimai birliklərin kitabxanaları təsisçilərinin vəsaitləri hesabına maliyyələşdirilir

D) Azərbaycan Respublikasında kitabxana işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir

E) Müstəsna hallarda müvafiq peşə-ixtisas təhsili olmayan, ancaq yüksək təcrübəyə və kitabxanada çoxillik iş stajına malik olan mütəxəssislər də kitabxanada işləyə bilərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

21. Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə hansı qeyri-dövlət kitabxanaları daxildir?
1. Dövlət idarə, müəssisə və təşkilatlarının kitabxanaları;
2. Şəhər, rayon, qəsəbə, kənd kitabxanaları;
3. Bələdiyyə kitabxanaları;
4. Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar;
5. Özəl və digər kitabxanalar;
6. İctimai birliklərin kitabxanaları;
7. Milli Kitabxana.

A) 3, 5, 6

B) 2, 3, 5

C) 2, 3, 5, 6

D) 3, 4, 5, 6

E) 2, 3, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

22. Milli Kitabxananın fəaliyyəti ilə bağlı düzgün bəndləri qeyd edin:
1. Milli Kitabxanaya əvəzsiz və müddətsiz istifadə üçün torpaq sahəsi verilə bilməz;
2. Milli Kitabxana statusuna malik olan kitabxanaların işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir;
3. Milli Kitabxana müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərir;
4. Milli Kitabxananın mülkiyyət formasını dəyişməyə müstəsna hallarda icazə verilir;
5.Milli Kitabxana universal şəkildə fəaliyyət göstərən qeyri-dövlət kitabxanalarına aiddir;
6. Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunan və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

A) 1, 3, 4

B) 2, 3, 4

C) 1, 3, 6

D) 2, 3, 6

E) 2, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

23. Kitabxana fondunun tərkibinə daxil olan obyektlərdən istifadə hansı Qanunun tələblərinə uyğun olaraq həyata keçirilir?

A) "İcarə haqqında" Azərbaycan Respublikası Qanununun

B) "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun

C) "Mədəni obyektlərdən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun

D) "Kitabxana fondlarında saxlanılan nəşrlərin istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun

E) "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

24. İctimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu:

A) Kitabxana işi

B) Kitabxana fondu

C) Kitabxana fəaliyyəti

D) Kitabxana

E) Kitabxana sistemi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

25. Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə hansı kitabxanalar daxildir?

A) Dövlət və qeyri-dövlət kitabxanaları

B) Dövlət, bələdiyyə və özəl kitabxanalar

C) Ümumi və xüsusi kitabxanalar

D) Dövlət, qeyri-dövlət və bələdiyyə kitabxanaları

E) Milli və beynəlxalq kitabxanalar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

26. "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"na görə kitabxanaların hüquqlarını qeyd edin:
1. Kitabxana fondunun komplektləşdirmə mənbələrini müəyyənləşdirmək;
2. Beynəlxalq kitabxana təşkilatları ilə əlaqə yaratmaq, kitabxana, biblioqrafiya və informasiya sahəsinə keçirilən tədbirlərdə iştirak etmək;
3. Kitabxanalardan istifadə qaydalarına əməl etmək, kitab fonduna qayğı ilə yanaşmaq;

4. Oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etmək;
5. Köhnəlmiş və ya yararsız hala düşmüş kitabları qanunvericilikdə müəyyən olunmuş qaydada kitabxananın fondundan çıxarmaq;
6. Kitabxanaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada dövlət büdcəsindən tələb etmək.

A) 1, 3, 4

B) 2, 3, 5

C) 1, 2, 5

D) 2, 5, 6

E) 1, 2, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

27. Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu hansı prinsiplər əsasında təşkil edilən və məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir?
1.Universal;
2. Sosial;
3. Qarşılıqlı istifadə;
4. Sahəvi;
5. Qanunçuluq;
6. Komplektləşdirmə;
7. İxtisaslaşdırılmış;
8. Depozitar mühafizə;
9. Mübadilə;
10. Çoxsahəli.

A) 1, 3, 4, 6

B) 2, 5, 6, 8

C) 3, 6, 8, 9

D) 1, 2, 5, 7

E) 1, 6, 7, 10

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

28. Ölkəmizdə kitabxana xidmətinin təşkili ilə bağlı aşağıdakı müddəalardan yanlış olanı qeyd edin:

A) Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməlidirlər

B) Kitabxanalar çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədilə kompleks kitabxana, biblioqrafiya xidmətləri göstərir

C) Kitabxana və biblioqrafiya xidmətləri abonentləri ədəbiyyat və informasiya ilə təmin etmək, informasiya daşıyıcılarının seçilməsində kömək göstərmək məqsədi daşıyır

D) Kitabxanalardan istifadə qaydaları və göstərilən xidmətlər kitabxanaların nizamnamələri və müvafiq normativ hüquqi aktları ilə müəyyənləşdirilir

E) Kitabxanaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada oxuculardan tələb etmək kitabxananın vəzifəsidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

29. Kütləvi, elmi, xüsusi kitabxanalar, gənclər, uşaqlar, gözdən əlillər üçün və sair kitabxanalar qüvvədə olan müvafiq qanunvericiliyə uyğun olaraq hansı tip kitabxanalara aid edilir?

A) Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara

B) Dövlət idarə, müəssisə və təşkilatların kitabxanalarına

C) İctimai birliklərin kitabxanalarına

D) Şəhər, rayon, qəsəbə və kənd kitabxanalarına

E) Dövlət təhsil müəssisələrinin kitabxanalarına

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

30. Kitabxana fondlarının zənginləşdirilməsi, oxuculara xidmət işinin təkmilləşdirilməsi, kitabxanaçılıq proqramlarının və tədbirlərinin hazırlanması və həyata keçirilməsində iştirak edən subyektlər kimlərdir?
1. Qeyri-dövlət orqanları;
2. Beynəlxalq təşkilatlar;
3. Hüquqi şəxslər;
4. Dövlət orqanları;
5. Transmilli şirkətlər;
6. Fiziki şəxslər;
7. Kitabxana işi sahəsində ictimai birliklər.

A) 1, 2, 3, 4, 5, 6, 7

B) 2, 3, 4, 5, 6, 7

C) 1, 3, 4, 6, 7

D) 3, 4, 6, 7

E) 3, 4, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Kitabxana işi haqqında Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Qanunu

31. Kitabxana işinə rəhbərlikdə, nizam-intizamın möhkəmləndirilməsində və işə nəzarət edilməsində lazımı faktların qeydi kimi başa düşülür:

A) Statistik uçot

B) Operativ uçot

C) İllik məlumat uçotu

D) Mühasibat uçotu

E) İllik statistik uçot

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

32. Aşağıdakı sənədlərdən hansı biri Azərbaycanda kitabxana menecmentinin hüquqi bazasına aid deyil?

A) Azərbaycan Respublikasının Konstitusiyası

B) "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu

C) "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu

D) "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu

E) “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunu

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

33. O hansı uçotdur ki:
1) Kitab fondu üzrə statistik hesablamaların tələbinə uyğun olaraq aparılır
2) Burada fondun ümumi dəyəri və materialların qeydi öz əksini tapır

A) Operativ uçot

B) Statistik uçot

C) Maliyyə uçotu

D) Summar uçot

E) Mühasibat uçotu

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

34. Kitabxanada kitab və kitabçalar hansı sənəddə qeyd olunurlar?

A) Texnoloji reqlamentdə

B) Nəşrlər üzrə uçot kataloqunda

C) Daxil olan sənədlərin reyestrində

D) İcraya nəzarət jurnalında

E) Tabel uçot jurnalında

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

35. Kitabxanalarda hər bir nəşr üçün hansı ölçü həcmində kartoçka ayrılır?

A) 25x105 mm

B) 55x115mm

C) 75x125mm

D) 65x95mm

E) 15x15mm

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

36. Kitabxanada bir nəşrdən neçə nüsxə alındığını və çıxarıldığını göstərən sənəd necə adlanır?

A) Protokol

B) Akt

C) Reqlament

D) Kartoçka

E) İltizamnamə

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

37. Çoxcildli əsərlərin bir cildinin çoxlu sayda nüsxələrinə neçə inventar nömrəsi verilir?

A) Cəmi bir inventar nömrəsi

B) Hər nüsxəyə bir inventar nömrəsi

C) Cəmi iki inventar nömrəsi

D) Hər iki nüsxəyə bir inventar nömrəsi

E) Hər üç nüsxəyə bir inventar nömrəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

38. Kitabın hansı şöbəyə və ya filiala aid olduğunu göstərən şərti işarə harada qeyd edilir?

A) Kitabın titul vərəqində

B) Kitabın son səhifəsində

C) Kartoçkanın üz hissəsində

D) Kitabın mündəricatında

E) Kitabın yarlığında və formulyarında

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

39. Kitabxana fondundan kitablar hansı sənəd əsasında çıxarılır?

A) Akt

B) Protokol

C) Əmr

D) Bildiriş

E) Tələbnamə

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

40. Cırıldığına, məzmunca köhnəldiyinə görə və oxucular tərəfindən itirilmiş çap məhsullarının çıxarılması
üçün tərtib olunan aktları kim təsdiq edir?

A) Mədəniyyət Nazirliyinin səlahiyyətli nümayəndəsi

B) Kitabxananın direktoru

C) Təşkil edilmiş komissiyanın sədri

D) Mədəniyyət nazirinin müavini

E) Kitabxananın müvafiq struktur bölməsinin rəhbəri

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

41. Neçə yaşına qədər oxucuların kitabxanalara üzv olması üçün valideynlərinin və yaxud tədris müəssisəsinin yazılı xahişi tələb edilir?

A) 18

B) 16

C) 15

D) 17

E) 14

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

42. Hansı yaşdan sonra uşaqlar böyüklər üçün olan kitabxanalardan istifadə edə bilərlər?

A) 17 yaşdan

B) 14 yaşdan

C) 16 yaşdan

D) 15 yaşdan

E) 18 yaşdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

43. Hansı kitabxana respublikada tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar üçün metodik mərkəz hesab olunur?

A) Respublika əhəmiyyətli elmi-sahəvi kitabxana

B) Bələdiyyə kitabxanaları

C) AMEA Kitabxanası

D) Şəhər, rayon, qəsəbə və kənd kitabxanaları

E) Milli Kitabxana

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

44. Ölkəmizdə kitabxana sahəsində istifadə edilən termin aşağıdakılardan hansıdır?

A) Kartoteka

B) Kroskopiya

C) Refraksiya

D) Fiksasiya

E) Dislakasiya

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

45. Qeyd olunan mülahizələr kitabxana işində hansı uçotu xarakterizə edir?
- Kitabxana statistikasının və hesabatlarının əsasını təşkil edir
- Onun əsasında məlumatlara uyğun olaraq hesabatlar yazılır, vaxtaşırı ümumiləşmələr aparılır
- Müəyyən vaxt ərzində görülən iş nəzərdən keçirilir

A) Statistik uçotu

B) Maliyyə uçotunu

C) İlkin uçotu

D) Operativ uçotu

E) Summar uçotu

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

46. O hansı hesabatdır ki:
1) Kitabxanalar üçün əsas hesabat növüdür
2) Kütləvi kitabxanalarda onun iki növü - statistik və məlumat hesabat növləri mövcuddur

A) Aylıq hesabat

B) Yarımillik hesabat

C) Maliyyə hesabatı

D) İllik hesabat

E) Rüblük hesabat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

47. Kitabxana işinin vahid mərkəzdən inzibati-amirlik metodları ilə idarə olunmasının aradan qaldırılmasına, kitabxana kollektivlərində müstəqillik və təşəbbüskarlığın genişlənməsinə xidmət edən menecment prinsipi:

A) Desentralizasiya

B) Elmilik

C) Demokratikləşdirmə

D) Siyasi yanaşma

E) Mərkəzləşdirmə

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

48. Oxucuların informasiya ehtiyatlarından səmərəli istifadə edilməsini təmin etmək məqsədi ilə müxtəlif idarə və müəssisələrin kitabxanalarının əlaqəli fəaliyyətini nəzərdə tutan prinsip hansıdır?

A) Mərkəzləşdirmə prinsipi

B) İşgüzar tərəfdaşlıq prinsipi

C) Demokratikləşdirmə prinsipi

D) İdarə edən və idarə olunan sistemlərin fəaliyyətinin həmahəngliyi prinsipi

E) Elmilik prinsipi

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

49. Kitabxana işinin idarə olunması sisteminin bütövlükdə kitabxanaşünaslıq və idarəetmə elminin son nailiyyətləri əsasında təşkil edilməsini nəzərdə tutan prinsip:

A) Millilik prinsipi

B) Dinamik prinsip

C) Elmilik prinsipi

D) Demokratikləşdirmə prinsipi

E) İşgüzar tərəfdaşlıq prinsipi

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

50. Kitabxana menecmentində tətbiq edilən və dövlətin ideoloji dəyərlərinin, əhalinin kitabxana-
informasiya sərvətlərindən istifadə etməsi istiqamətində onların konstitusiya hüquqlarının təmin edilməsini müəyyənləşdirən prinsip hansıdır?

A) Millilik prinsipi

B) Elmilik prinsipi

C) Demokratikləşdirmə prinsipi

D) Siyasi yanaşma prinsipi

E) Desentralizasiya prinsipi

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

51. Qeyd edilənlərdən hansı kitabxana işində idarəetmə funksiyalarının növlərindən deyil?

A) Planlaşdırma

B) Uçot

C) Mərkəzləşdirmə

D) Maliyyələşdirmə

E) Nəzarət

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

52. Müntəzəm şəkildə kitabxanaların fəaliyyəti ilə əlaqədar faktların və məlumatların toplanıb, sistemləşdirilməsi kitabxana işində hansı idarəetmə funksiyasının əsas məqsədidir?

A) Koordinasiya funksiyasının

B) Nəzarət funksiyasının

C) Təşkilati təhlil funksiyasının

D) Planlaşdırma funksiyasının

E) Uçot funksiyasının

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

53. Kitabxana işində istifadə olunan uçot sisteminə hansı uçot növləri daxildir?
1. Operativ;
2. Statistik;
3. Mühasibat;
4. Maliyyə;
5. Audit;
6. İqtisadi;
7. Yekun.

A) 1, 2, 3, 7

B) 1, 2, 3, 4

C) 1, 2, 3, 4, 5

D) 1, 2, 3, 4, 5, 6

E) 1, 2, 3, 4, 5, 6, 7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

54. Kitabxana işində nəzarətin hansı formaları mövcuddur?
1. Regional;
2. Beynəlxalq;
3. Operativ;
4. Dövlət;
5. İctimai;
6. Kitabxanadaxili.

A) 1, 2, 3, 4, 5, 6

B) 2, 3, 4, 5, 6

C) 3, 4, 5, 6

D) 4, 5, 6

E) 2, 4, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

55. Kitabxana işində operativ uçota aid olan düzgün bəndləri müəyyənləşdirin.
1. Maliyyə vəsaitlərinin xərclənməsinə nəzarət
2. İşçilərin işə gəlməsi və işdən çıxmasının qeydiyyatı
3. Faktların kəmiyyət xarakteristikalarının hesablanması
4. Kitab fondunun yoxlanılması
5. Ədəbiyyatların inventar kitabına yazılması
6. Faktların kəmiyyət xarakteristikalarının qeydiyyatı
7. İş normalarının uçotu və yerinə yetirilməsi
8. Pul vəsaitlərinin hərəkətini özündə əks etdirən məxariclərin müəyyənləşdirilməsi

A) 2, 5, 6, 7

B) 1, 3, 6, 8

C) 2, 4, 5, 7

D) 3, 5, 6, 7

E) 1, 4, 5, 7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

56. Bildiyimiz kimi çox da böyük olmayan kitabxanalarda bütün uçot növləri ümumiləşdirilir və vahid bütövlükdə götürülür. Belə olan halda oxucu formulyarlarının doldurulması və kitab
verilişi özündə hansı uçotları ehtiva edir?

A) Statistik və operativ

B) Mühasibat və statistik

C) Yalnız statistik

D) Mühasibat və operativ

E) Statistik, mühasibat və operativ

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

57. Kitabxana işində statistik uçota aid olan düzgün bəndləri qeyd edin:
1. Maliyyə vəsaitlərinin xərclənməsinə nəzarət;
2. İşçilərin işə gəlməsi və işdən çıxmasının qeydiyyatı;
3. Faktların kəmiyyət xarakteristikalarının hesablanması;
4. Kitab fondunun yoxlanılması;
5. Ədəbiyyatların inventar kitabına yazılması;
6. Faktların kəmiyyət xarakteristikalarının qeydiyyatı;
7. İş normalarının uçotu və yerinə yetirilməsi;
8. Pul vəsaitlərinin hərəkətini özündə əks etdirən məxariclərin müəyyənləşdirilməsi.

A) 3, 6

B) 1, 8

C) 2, 3, 6

D) 1, 3, 8

E) 1, 3, 6, 8

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

58. Qeyd olunan mülahizələr kitabxana işində hansı uçotu xarakterizə edir?
- Tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar üçün məcburidir və metodlar üzrə həyata keçirilir
- Faktların kəmiyyət xarakteristikalarının hesablanması və qeydiyyatını özündə ehtiva edir
- Fondun hərəkət kitabını bu uçota misal göstərmək olar

A) Operativ uçotu

B) Statistik uçotu

C) Maliyyə uçotunu

D) Summar uçotu

E) Mühasibat uçotunu

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

59. Summar uçotda yeni alınan ədəbiyyatlar və fonddan çıxarılan dövri mətbuat harada qeyd olunur?
1. Maliyyə hesabatında;
2. İnventar kitabında;
3. Statistik cədvəldə;
4. Uçot kataloqunda;
5. Fondun hərəkəti kitabında;
6. Qeydiyyat jurnalında.

A) 2, 5 və 6

B) 1, 3 və 4

C) 2, 3 və 4

D) 1, 3 və 6

E) 2, 4 və 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

60. Kitabxana işində mühasibat uçotuna aid olan düzgün müddəalar hansılardır?
1. Maliyyə vəsaitlərinin xərclənməsinə nəzarət edir
2. İşçilərin işə gəlməsi və işdən çıxmasının qeydiyyatını aparır
3. Faktların kəmiyyət xarakteristikalarının hesablanması və qeydiyyatını ehtiva edir
4. Kitab fondunun yoxlanılması ilə məşğul olur
5. Xüsusi metodlarla mühasibat işçiləri tərəfindən həyata keçirilir
6. Kitab işləmə prosesində uçotun aparılmasına nəzarət edir
7. Pul vəsaitlərinin hərəkətini özündə əks etdirən vəsaitləri və məxaricləri müəyyənləşdirir

A) 1, 5, 6

B) 3, 5, 6

C) 2, 5, 7

D) 1, 5, 7

E) 3, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

61. Kitabxanalarda statistika işi hansı mərhələlərdən ibarətdir?

A) Müşahidə, məlumat, qruplaşdırma

B) Nəzarət, araşdırma, qruplaşdırma

C) Məlumat, müşahidə, növbəlilik

D) Tədqiqat, məlumat, qruplaşdırma

E) Qruplaşdırma, müşahidə, nəzarət

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

62. Oxucuların tərkibi, onların iş yerləri, kitabxanaya gəlişi, istifadə etdikləri ədəbiyyat, kitab verilişi və s. məsələləri əhatə edir:

A) Oxuculara xidmətin statistikası

B) Kitabxana şəbəkələri

C) Kitabxananın fəaliyyəti

D) Kitabxana fondu

E) Kitabxanaçı kadrlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

63. İl ərzində verilmiş kitabın ümumi miqdarını həmin dövrdə qeydə alınmış oxucuların sayına bölməklə müəyyən edilən oxucuya verilən kitabın orta miqdarına nə deyilir?

A) Paylanma

B) Oxunuş

C) Mübadilə

D) Fiksasiya

E) Gəliş

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

64. Kitabxana fondunun uçot kitabı hansı hissələrdən ibarətdir?
1. Fondda oxunuş;
2. Fonddan çıxarma;
3. Fondun uçotunun yekunu;
4. Kargüzarlıq və qeydiyyat;
5. Fonda vermə;
6. Fonda daxil olma;
7. Kataloq.

A) 2, 6

B) 1, 3

C) 2, 3, 6

D) 2, 3, 5, 6

E) 1, 2, 3, 5, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

65. İlin sonunda kitabxanadakı kitabların miqdarının qeydə alınmış oxucuların sayına olan nisbəti:

A) Oxunuş əmsalı

B) Nisbi kitab fondu

C) Oxunuş

D) Optimal oxucu sayı

E) Kitab təminatı

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

66. Universal tematikaya malik fondu olan və kütləvi ədəbiyyata olan tələbatı ödəyən kitabxanalar necə adlanır?

A) Kütləvi kitabxanalar

B) Elmi kitabxanalar

C) Xüsusi kitabxanalar

D) Sahə kitabxanaları

E) Texniki kitabxanalar

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

67. Müəssisələrdə, tikintidə, elmi institutlarda, laboratoriyalarda, nazirliklərdə, bədən tərbiyəsi və müalicə müəssisələrində və başqa ictimai təşkilatlarda fəaliyyət göstərən kitabxanalar:

A) Kütləvi və ictimai kitabxanalar

B) Elmi, texniki və xüsusi kitabxanalar

C) Sahəvi və sahələrarası kitabxanalar

D) Dövlət, bələdiyyə və xüsusi kitabxanalar

E) Ümumi və xüsusi kitabxanalar

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

68. Kitabxana statistikası ilə bağlı aşağıda verilən müddəalardan hansı yanlışdır?

A) Kitabxana statistikası kitabxanaların işi ilə bağlı proseslərin miqdar və kəmiyyət tərəfini öyrənir

B) Kitabxana statistikası sosial-iqtisadi statistikanın müəyyən sahəsi, mədəniyyət statistikasının bir bölməsidir

C) Kitabxana statistikasının əsas məqsədi kitabxananın iş sahələrinin uçot metodlarını qiymətləndirməkdir

D) Kitabxana şəbəkəsinin və fondlarının statistikası, eləcə də kitabxananın fəaliyyəti kitabxana statistikasına daxildir

E) Kitabxana statistikası sosial-iqtisadi statistikanın nəzəriyyə və metodologiyasını tətbiq edir, ona əsaslanır

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

69. Kitabxana işinin təşkili və idarə edilməsi baxımından kitabxana statistikası nə kimi məsələləri öyrənir?
1. Kitabxananın fəaliyyəti;
2. Kitabxana şəbəkələri;
3. Kitabxanada uçot və hesabat;
4. Oxuculara xidmətin statistikası;

5. Kitabxananın məqsədi;
6. Kitabxana fondu;
7. Kitabxananın vəzifəsi;
8. Kitabxanaçı kadrlar;
9. Kitabxana metodologiyası.

A) 1, 5, 7, 8, 9

B) 2, 3, 4, 6, 8

C) 3, 5, 6, 7, 9

D) 1, 2, 4, 6, 8

E) 2, 3, 5, 6, 7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

70. Kitabxanada toplanmış fondun uçotunu aparmaq, onun vəziyyəti, inkişafı, istifadəsi, ölkənin mədəni səviyyəsinin inkişafına təsiri, elmi-texniki tərəqqi və digər hadisələrlə əlaqəsini özündə əks etdirmək nədir?

A) Kitabxana fəaliyyətidir

B) Kitabxana statistikasının əsas məqsədidir

C) Kitabxana şəbəkəsidir

D) Kitabxana statistikasının vəzifəsidir

E) Kitabxana fondunun statistikasıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

71. Bildiyimiz kimi bir sıra ayrı-ayrı kitabxanalar rəqəm məlumatlarını uçot - qeyd üsulu ilə əldə edirlər. Bu zaman aşağıdakıların hansı birindən istifadə olunmur?

A) Summar uçot

B) İlkin uçot

C) Maliyyə uçotu

D) Statistik gündəliklər

E) Toplu uçot

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

72. Statistik müşahidələr uçotun dolğunluğu baxımından öyrənilən hadisələrin və ya iş proseslərinin məqsədinə görə necə ola bilər?

A) Tam və natamam

B) Ümumi və xüsusi

C) Əsas və əlavə

D) İctimai və özəl

E) Nisbi və mütləq

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

73. Kitabxana statistikasında istifadə olunan hansı metoddur ki:
- bu zaman öyrənilən məlumatların ancaq müəyyən hissəsi qeydə alınır;
- digər metodlarla müqayisədə üstünlüklərə malikdir, ucuz və az zəhmətlə başa gəlir;
- cari uçot vasitəsilə alınması mümkün olmayan məlumatları əldə etmək üçün tətbiq edilir;
- bu zaman qeydlərin sayı az olur ki, bu da onların
işlənməsini və təhlilini xeyli asanlaşdırır

A) Tam metod

B) Maliyyə metodu

C) Seçmə metodu

D) Qruplaşdırma metodu

E) Operativ metod

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

74. Miqdar göstəricilərinin sistemini işləmək və tədqiq etmək, kitabxananın ayrı-ayrı iş sahələrinin uçot metodlarını öyrənmək və bütövlükdə onu qiymətləndirmək:

A) Kitabxana fəaliyyətidir

B) Kitabxana statistikasının əsas məqsədidir

C) Kitabxana şəbəkəsidir

D) Kitabxana statistikasının vəzifəsidir

E) Kitabxana fondunun statistikasıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

75. Kitab verilişi, onun tərkibi, kütləvi işlər, səyyarların fəaliyyəti, fəalların cəlb olunması kitabxana statistikasında necə adlanır?

A) Oxuculara xidmətin statistikası

B) Kitabxana şəbəkələri

C) Kitabxananın fəaliyyəti

D) Kitabxana fondu

E) Kitabxanaçı kadrlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

76. Kitabxana statistikasında müqayisə olunacaq göstəriciləri özündə birləşdirən rəqəmlərin təhlili kimi xarakterizə edilən nisbi göstəricilərin hansı növləri fərqləndirilir?
1. Növbəlilik;
2. Quruluş;
3. Statistik;
4. Səmərəlilik;
5. Dinamika;
6. Qanunauyğunluq.

A) 2, 3, 4

B) 1, 3, 4

C) 3, 4, 5

D) 1, 4, 6

E) 2, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

77. İl ərzində bir oxucunun kitabxanaya gəlməsinin miqdarına nə deyilir?

A) Mübadilə

B) Gəliş

C) Yekun

D) Paylanma

E) Oxunuş

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

78. Kitabxana fondlarının statistikasının nisbi göstəricilərinin istifadə olunduğu kitab fondunun dövriyyəsi:

A) İl ərzində bir oxucunun kitabxanaya gəlməsinin miqdarıdır

B) İlin sonunda kitabxanadakı kitabların miqdarının qeydə alınmış oxucuların sayına olan nisbətidir

C) İllik kitab verilişinin
ilin sonunda olan kitab-kitabça, jurnal və digər materialların miqdarına bölünməsidir

D) Kitabxana kadrlarının miqdarı, yaşları və kitabxanaların tipləri nəzərə alınmaqla kateqoriyalara ayrılmadır

E) İl ərzində verilmiş kitabın ümumi miqdarının həmin dövrdə qeydə alınmış oxucuların sayına bölünməsidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

79. Ölkəmizdə kitabxana işində oxuculara xidmət göstəricilərinin nisbi əsası hansı elementlərdən ibarətdir?
1. Gəliş;
2. Dolğunluq;
3. Oxunuş;
4. Təminat.

A) 1, 2, 3, 4

B) 1, 2, 3

C) 1, 3, 4

D) 1, 3

E) 1, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

80. Şəhər və kəndlərdə kitabxanaların yerləşdirilməsi, tipinə, növünə, əhatəsinə, inzibati tabeçiliyinə və s. əlamətlərinə görə bölünməsi kitabxana statistikasında nə deməkdir?

A) Oxuculara xidmətin statistikası

B) Kitabxana şəbəkələri

C) Kitabxananın fəaliyyəti

D) Kitabxana fondu

E) Kitabxanaçı kadrlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

81. Aşağıdakılardan hansı universal elmi kitabxanaların şöbələrinə daxil deyil?

A) Milli ədəbiyyat

B) Elmi-metodiki

C) Biblioqrafiya

D) Komplektləşdirmə

E) Reqlamentləşdirmə

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

82. Kitabxanada o hansı şöbədir ki, müxtəlif mənbələrdən alınan yeni ədəbiyyatı komplektləşdirir, məcburi nüsxələr, kollektordan alınan kitablar, kitab mağazalarından və s. yeni ədəbiyyatın uçotunu aparır?

A) Komplektləşdirmə şöbəsi

B) Kitabişləmə və kataloqlar şöbəsi

C) Xidmət şöbəsi

D) Kitabsaxlayıcı şöbəsi

E) Biblioqrafiya şöbəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

83. Qeyd olunan mülahizələr universal elmi kitabxanalarda hansı şöbənin işini xarakterizə edir?
- Çap məhsulları, əlyazmaları, audiovizual materialları, not və qrafika sənədlərini əsas fondda saxlamaq
- Materialların oxu zalında istifadə edilməsini təmin etmək
- Nadir kitabları və əlyazmaları saxlamaq

A) Biblioqrafiya şöbəsi

B) Kitabişləmə və kataloqlar şöbəsi

C) Komplektləşdirmə şöbəsi

D) Kitabsaxlayıcı şöbəsi

E) Xidmət şöbəsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

84. Ali təhsil müəssisələrinin kitabxana şəbəkələrində nə kimi təşkilati quruluşlar müşahidə olunur?
1. Səmərəlilik;
2. Uçot;
3. Başa çatmamış mərkəzləşmə;
4. Planlaşdırma;
5. Növbəlilik;
6. Mərkəzləşmə;
7. Ardıcıl mərkəzləşdirmə;
8. Statistika.

A) 1, 3, 4, 5, 6

B) 2, 4, 6, 7

C) 1, 4, 5, 6

D) 2, 4, 6, 8

E) 3, 6, 7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

85. Əsas vəzifəsi kitabxanaşünaslıq və biblioqrafiyanın əsas problemlərinin işlənməsi, tədqiqat planları və proqramlarının işlənməsində, respublika ərazisində müvafiq mövzuların işlənməsinin əlaqələndirilməsi və elmi nailiyyətlərin təcrübədə tətbiq edilməsi işində yaxından iştirak etməkdən ibarət olan şöbə necə adlanır?

A) Elmi-metodiki şöbə

B) Biblioqrafiya şöbəsi

C) Elmi-tədqiqat şöbəsi

D) Kitabxanaşünaslıq və biblioqrafiya şöbəsi

E) Strateji təhlil şöbəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

86. Müəyyən iş sahəsində cavabdehliyin artırılması, nəzarətin gücləndirilməsi məqsədilə kitabxanalarda böyük şöbələr ayrılır:

A) Departamentlərə

B) Sektorlara

C) Oxu zallarına

D) İdarələrə

E) Təşkilatlara

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

87. Universal elmi kitabxanalarda o hansı şöbədir ki:
1) Fonddan istifadəni və onun məzmununun kataloqda açılmasını təmin edir;
2) Yeni alınan ədəbiyyatın həcmindən asılı olaraq bölmələr və qruplar yaradılır.

A) Biblioqrafiya şöbəsi

B) Kitabişləmə və kataloqlar şöbəsi

C) Komplektləşdirmə şöbəsi

D) Kitabsaxlayıcı şöbəsi

E) Xidmət şöbəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

88. Kitabxanaların quruluşu və idarə olunması ilə bağlı qeyd olunan mülahizələrdən hansı yanlışdır?

A) Böyük kitabxanalarda adətən dörd növ quruluş - kompleks, sahəvi, sahədaxili və şəbəkəli formalar müəyyənləşdirilir ki, onların da hamısı işin həcmindən asılı olaraq yaradılır

B) Kompleks quruluş xüsusi nəşr növlərinin komplektləşdirilmə və işləməsi ilə məşğul olur, kitabxana işinə dair bütün funksiyaları yerinə yetirir, oxuculara xidmət edir

C) Kitabxanalarda işin təşkili zamanı onun quruluşu formalaşır, kitabxana aparatının sxemi, quruluşu meydana gəlir və onların ayrı-ayrı bölmələrdə tabeçiliyi müəyyənləşdirilir

D) Təcrübədə bir sıra kitabxana quruluşları mövcuddur ki, bunlara qrup, linqvistik (dil) növlü, sahəvi, vəzifəli və kabinəli quruluş formalarını misal göstərmək olar

E) Linqvistik quruluş dil əlamətlərinə görə şöbələrin kompleksləşdirilməsi və xidmət işinin təşkili kimi başa
düşülür və oxucular üçün o qədər də əlverişli hesab edilmir

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

89. İncəsənətin bütün növləri üzrə, xüsusilə musiqi və not ədəbiyyatının təbliği ilə məşğul olan kitabxana şöbəsi necə adlanır?

A) Xarici ədəbiyyat şöbəsi

B) Xidmət şöbəsi

C) Milli ədəbiyyat şöbəsi

D) İncəsənət şöbəsi

E) Biblioqrafiya şöbəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

90. Qeyd olunan müddəalar universitet kitabxanası şəbəkələrində hansı təşkilati quruluşu xarakterizə edir?
- Ən səmərəli və mütərəqqi hesab olunur;
- Universitetdə vahid kitabxana şəbəkəsi xidmət göstərir;
- Bütün işçilər əsaslı kitabxananın ştatına daxil edilir;
- Universitetdə lazımi filial məntəqələri yaradılır

A) Qismən mərkəzləşdirmə

B) Universal mərkəzləşdirmə

C) Tam mərkəzləşdirmə

D) Qeyri mərkəzləşdirmə

E) Ardıcıl mərkəzləşdirmə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

91. Kitabxana işinin planlaşdırılması aşağıda qeyd olunan hansı prinsiplərə əsasən qurulmalıdır?
1. Əlaqəlilik
2. Səmərəlilik
3. Konkretlik
4. Qismən mərkəzləşdirmə
5. Nəzarət
6. Elmi əsaslandırma
7. Araşdırma
8. Növbəlilik
9. Direktivlik
10. Tam mərkəzləşdirmə

A) 4, 6, 7, 10

B) 1, 3, 6, 9

C) 4, 5, 9, 10

D) 1, 2, 3, 8

E) 2, 3, 8, 9

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

92. Kitabxana işinin planlaşdırılmasının bölündüyü planlar təsir dairəsi baxımından hansı kateqoriyalara ayrılır?

A) Perspektiv və cari

B) İllik, rüblük və aylıq

C) Toplu və kitabxanadaxili

D) Universal və sahəvi

E) Daxili və xarici

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

93. Kitabxana işinin proqnozlaşdırılmasında istifadə olunan hansı metod müəyyən bir sahədə elmi isçilərin və ya yüksəkixtisaslı mütəxəssis və praktiklərin sorğu-ekspert vasitəsilə əldə etdikləri və yeni yolla öyrəniləcək məsələlərin inkişafı haqqında alınan məlumatlardan ibarətdir?

A) Ekspertiza

B) Modelləşdirmə

C) Kompleks

D) Ekstropolyasiya

E) Müqayisəli

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

94. Aşağıdakı müddəalardan hansı biri kitabxana işinin proqnozlaşdırılmasında istifadə edilən modelləşdirmə metoduna xarakterik cəhət deyil?

A) Riyazi modellərin elmi
işləmələrdə obyektə tətbiq edilməsindən ibarətdir

B) Hadisələrin baş verməsinə daha yaxındır

C) Riyazi metodlar əsasında alınan təhli və nəticələrə görə gipotetik model hazırlanır

D) Keçmiş göstəricilər cari göstəricilərlə tutuşdurulur

E) Xarici aləmə xüsusi təsir göstərir və riyazi simvollardan ibarətdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

95. Kitabxana işinin proqnozlaşdırılmasının metodları arasında qanunauyğunluğu müəyyənləşdirin:
1. Müsahibə və ya komissiya metodu bu metodun növlərindən hesab olunur;
2. Keçmiş göstəricilər cari göstəricilərlə tutuşdurulur, gələcək dövr üçün onun əhəmiyyəti nəzərə alınır;
3. Hadisələrin baş verməsinə daha yaxındır, xarici aləmə xüsusi təsir göstərir;
a) Ekstropolyasiya metodu;
b) Modelləşdirmə metodu;
c) Ekspertiza metodu;

A) 1-c; 2-b; 3-a

B) 1-a; 2-b; 3-c

C) 1-b; 2-c; 3-a

D) 1-c; 2-a; 3-b

E) 1-a; 2-c; 3-b

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

96. Kitabxana işinin planlaşdırılmasının əsas prinsipləri arasında qanunauyğunluğu müəyyən edin.
1. Cari vəzifələrin perspektiv vəzifələrlə əlaqələndirilməsinə şərait yaradır
2. Plan göstəricilərinin yerinə yetirilməsi üçün bütün resurs, güc və vasitələri səfərbər etmək lazımdır
3. Rayon ərazisində fəaliyyət göstərən bütün kitabxanaların işinə nəzarət etməyə imkan verir
a) Direktivlik
b) Elmi əsaslandırma
c) Əlaqəlilik

A) 1-a; 2-b; 3-c

B) 1-c; 2-b; 3-a

C) 1-b; 2-c; 3-a

D) 1-c; 2-a; 3-b

E) 1-b; 2-a; 3-c

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

97. Kitabxana işinin proqnozlaşdırılmasında o hansı metoddur ki:
- Keçmiş göstəricilər cari göstəricilərlə tutuşdurulur, gələcək dövr üçün onun əhəmiyyəti nəzərə alınır
- Praktiki hesablamalar üçün diaqramlardan
istifadə etmək daha səmərəlidir ki, burada inkişaf həddi göstərilir, dövr müəyyənləşir
- Digər statistik təhlil metodları kimi yaradıcı yanaşmağı tələb edir

A) Riyazi

B) Ekstropolyasiya

C) Modelləşdirmə

D) Qiymətləndirmə

E) Ekspertiza

Testin çətinlik dərəcəsi: çətin

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

98. Kitabxana işinin proqnozlaşdırılmasında istifadə olunan hansı metodda keçmiş göstəricilər cari göstəricilərlə tutuşdurulur, gələcək dövr üçün onun əhəmiyyəti nəzərə alınır?

A) Ekspertiza

B) Modelləşdirmə

C) Kompleks

D) Ekstropolyasiya

E) Riyazi

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

99. Vahid plan əsasında əhaliyə kitabxana xidmətinin əsaslandırılması - kitabxana şəbəkələrinin yerləşdirilməsi, rayon, şəhər və iqtisadi rayonlar üzrə onların fəaliyyətinin əlaqələndirilməsi dedikdə, kitabxana işinin planlaşdırılmasının hansı növü başa düşülür?

A) Sahəvi planlaşdırma

B) Daxili planlaşdırma

C) Ərazi üzrə planlaşdırma

D) Perspektiv planlaşdırma

E) Kitabxanadaxili planlaşdırma

Testin çətinlik dərəcəsi: orta

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

100. Ayrıca bir kitabxananın fəaliyyətini müəyyənləşdirən, onun şöbələrində, bölmələrində işçilərin fəaliyyətini istiqamətləndirən planlar:

A) Perspektiv

B) Kitabxanadaxili

C) Sahəvi

D) Toplu

E) Cari

Testin çətinlik dərəcəsi: asan

İstinad: X.İ.İsmayılov. Kitabxana işinin təşkili və idarə edilməsi.Bakı, 2009

101. Müvafiq qanunvericiliyə əsasən kitabxanaya daxil olan bütün çap məhsulları hansı sənədlərin müşayiəti ilə kitabişləmə şöbəsinə göndərilir?

A) Hesab sənədi, faktura, çekin surəti, ərizə

B) Hesab sənədi, faktura, çekin surəti, bildiriş

C) Hesab sənədi, faktura, çekin surəti, əmr

D) Hesab sənədi, faktura, çekin surəti, protokol

E) Hesab sənədi, faktura, çekin surəti, akt

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları. AR Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmişdir.

102. Kitabxanaya daxil olan ədəbiyyat qoşma sənədlə düz gəlməyəndə və ya nöqsanlı nüsxələr olduqda ədəbiyyatın qəbuluna məsul şəxsin və kitabxananın ictimai təşkilatının nümayəndəsinin iştirakı ilə hansı sənəd tərtib edilir?

A) Akt

B) Əmr

C) Protokol

D) Bildiriş

E) Ərizə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları. AR Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmişdir.

103. Kitabxana tərəfindən alınmış ədəbiyyat qoşma sənədlə yoxlanıldıqdan, nüsxələrin miqdarı təyin edildikdən və ştamp vurulduqdan sonra hansı kitaba yazılır?
1. Fərdi kitaba;
2. Ümumi kitaba;
3. Formulyar kitabına;
4. Sistemli kitaba;
5. Giriş kitabına.

A) Yalnız 2

B) 1 və 2

C) 1, 2 və 3

D) 1, 2, 3 və 4

E) 1, 2, 3, 4 və 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları. AR Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmişdir.

104. "Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları"na görə kitabxana fondunun uçot kitabı hansı hissələrdən ibarətdir?
1. Fondda olan ədəbiyyat;
2. Fonddan çıxarılan ədəbiyyat;
3. Oxuculara verilən ədəbiyyat;
4. Fondun uçotunun yekunu;
5. Fonda daxil olan ədəbiyyat;
6. İnventarlaşdırılmayan ədəbiyyat;
7. Fonda verilməsi planlaşdırılan ədəbiyyat;
8. Arxivə gedən ədəbiyyat;

A) 2, 3, 5, 7

B) 1, 3, 7, 8

C) 1, 2, 5

D) 2, 4, 5

E) 1, 8

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları. AR Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmişdir.

105. Kitabxanalarda kitab fondunun dəyər uçotunu aparan bölmə:

A) Komplektləşdirmə

B) Nəzarət

C) Mühasibatlıq

D) Biblioqrafiya

E) Maliyyə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları. AR Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmişdir.

106. Fonddan ədəbiyyat çıxarılarkən akt neçə nüsxədə tərtib olunur?

A) Bir

B) İki

C) Üç

D) Dörd

E) Beş

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları. AR Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmişdir.

107. İşçilərə ilkin təlimatı kim keçir?

A) Əməyin mühafizə şöbəsinin mühəndisi

B) Əməyin mühafizəsi şöbəsinin rəisi

C) Sahə və ya işin rəhbəri

D) Həmkarlar ittifaqı komitəsinin sədri

E) Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

108. İşçilərə ilkin təlimat harda keçirilir?

A) Baş mühəndisin yanında

B) İşçinin göndərildiyi sahədə

C) Həmkarlar ittifaqı komitəsində

D)  Əməyin mühafizəsi otağında

E)  Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

109. İş yerlərində əmək şəraiti dəyişərsə və ya hər hansı bir bədbəxt hadisə baş verərsə bu zaman işçilərə hansı təlimat keçirilməlidir?

A)  Təkrar təlimat

B)  İlkin təlimat

C)  Növbədənkənar təlimat

D)  Birdəfəlik təlimat

E)  Giriş təlimat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

110. İş yerində təlimat öz növbəsində hansı təlimatlara bölünür?

A)  İlkin, giriş və növbədənkənar

B)  İlkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik

C)  Giriş, vaxtaşırı, birdəfəlik və növbədənkənar

D)  Giriş, vaxtaşırı və növbədənkənar

E)  Giriş, ilkin, vaxtaşırı, birdəfəlik və növbədənkənar

Testin çətinlik dərəcəsi: asan

İstinad:  Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

111. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində gündəlik normal iş vaxtının müddəti neçə saatdır?

A)  8 saatdan artıq olmamalıdır

B)  10 saatdan artıq olmamalıdır

C)  7 saatdan artıq olmamalıdır

D)  5 saatdan artıq olmamalıdır

E)  6 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

112. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində həftəlik normal iş vaxtının müddəti neçə saatdır?

A)  40 saatdan artıq olmamalıdır

B)  35 saatdan artıq olmamalıdır

C)  36 saatdan artıq olmamalıdır

D)  33 saatdan artıq olmamalıdır

E)  45 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

113. Təhlükəli və zərərli amillər hansı qruplara bölünür?

A) Kimyəvi, bioloji və psixofizioloji

B) Sosioloji, kimyəvi, bioloji və psixofizioloji

C) Bioloji və psixofizioloji

D) Fiziki və  kimyəvi və psixofizioloji

E) Fiziki, kimyəvi, bioloji və psixofizioloji

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

114. İş yerlərində attestasiyanın keçirilməsi neçə müddətdən bir aparılır?

A) İki ildə bir dəfədən az olmayaraq

B) Dörd ildə bir dəfədən az olmayaraq

C)  Üç ildə bir dəfədən az olmayaraq

D) Beş ildə birdəfədən az olmayaraq

E)  İldə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

115. Qadınlar üçün əllə daşınan yüklərin yüklənib boşaldılması və daşınması zamanı çəkisi maksimum nə qədər olmalıdır ?

A) 25 kq-dan artıq olmamalıdır

B) 15 kq-dan artıq olmamalıdır

C) 30 kq-dan artıq olmamalıdır

D) 50 kq-dan artıq olmamalıdır

E) 10 kq-dan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

116. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

117. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

118. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

119. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

120. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

121. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və  əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

122. Günvurma nə vaxt baş verir?

A) Günəşli havada gün şüalarının altında olduqda

B) Yayda kölgəlikdə çox durduqda

C) Isti otaqda  çox qaldıqda

D) İsti yay fəslində günəşli havada gün şüalarının təsiri altında çox durduqda

E) Qışda günəşli havada gün şüalarının təsiri altında çox durduqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Ətraf mühitin mühafizəsi haqqında qanunu Bakı 1999

123. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı  2008

124. Bədbəxt hadisə nədir?

A) Texniki qurğuların dayanması, yaxud nasazlığı

B) İşçinin və ya işçilərin iş yerlərində alığı xəsarətdir

C) Texnoloji rejiminin pozulması

D) Nəzarət edilə bilməyən partlayış və yanğın

E) Təhlükəli maddələrin ətraf mühitə yayılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

125. İstehsalat təhlükəsi və ya zərərli amillərin təsirinin qarşısını alan və ya azaldan vasitələr necə adlanır?

A) Təhlükəsizlik vasitələri

B) Mühafizə vasitələri

C) Kollektiv vasitələri

D) Xilasetmə vasitələri

E) Xəbərvermə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

126. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

127. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

128. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997) Respublikasında yanğın təhlükəsizliyi qaydaları

129. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

130. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

131. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

132. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

133. Hansı hündürlükdən başlayaraq"Yüksəklikdə görülən işlər"anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

134. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

135. Təxliyyə (köçürmə) planları hansı binalarda tərtib olunur?

A) 10 nəfərdən çox insan olan

B) 100 nəfərdən çox insan olan

C) Hamısında

D) 17 nəfərdən çox insan olan

E) 27 nəfərdən çox insan olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

136. Yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını kimlər bilməlidirlər?

A) Sex rəisi

B) Fəhlələr və aparatçıla

C) Qulluqçular

D) Fəhlə və qulluqçuların hamısı

E) Ustalar və çilingərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

137. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı

B) Sex rəisi

C) Qulluqçular

D) Fəhlələr və aparatçılar

E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

138. Yanğın təhlükəsizliyinə aid olan normativ sənədlər:

A) Standartlar, yanğın təhlükəsizliyi normaları, qaydaları və təlimatları

B) Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə

C) Sanitariya-epidemioloji qaydalar haqqında Əsasnamə

D) Həmkarlar ittifaqının nizamnaməsi

E) Aktlar, xidməti yazılar və texniki təhlükəsizlik qaydaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997

139. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Кompyuterdən, printerdən. Proyektordan

C) Кompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

140. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

141. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələrı

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yanğın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

142. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasıtələrından kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

143. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək

B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək

C) İcra hakimiyyətinə xəbər vermək

D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək

E) Dərhal əmək müfəttişliyinə xəbər vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

144. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri

B) Görmək və eşitmək üçün mühafizə vasitələri

C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri

D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri

E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999